# 15 İyun – Milli Qurtuluş Günü Azərbaycanın gələcəyinin xilası ilə əlamətdar oldu

(Əvvəli 4-cü səhifədə).

təntənəsidir. Tariximizin bu əlamətdar gününü qeyd etməklə biz təkcə bir liderin yox, bütün xalqın müdrikliyini və gələcəyə olan ümidini xatırlayırıq. Ulu Öndər Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən bu gün həmin yol uğurla davam etdirilir. Azərbaycanın hərbi-siyasi uğurları, 2020-ci ildə əldə olunmuş tarixi Qələbə və işğaldan azad edilən torpaqlarda aparılan bərpa-quruculuq işləri 15 İyunun tarixdə nə qədər mühüm yer tutduğunu bir daha sübut edir. Ulu öndər Heydər Əliyev təkcə bir lider deyildi – o, millətin qürur simvolu, dövlətçilik məktəbinin banisi, suverenliyin qəhrəmanı idi. Onun Bakıya dönüşü – bir siyasi vətənə dönüş idi. Xalq bu dönüşü "qurtuluş" adlandırdı. Və tarix bu adı təsdiqlədi. Əslində, Heydər Əliyevin həyatı boyu gördüyü bütün işlər bir vəsiyyət idi. Gələcək nəsillərə, Azərbaycan gəncliyinə, dövlət məmurlarına, əsgərə, müəllimə – bu xalqın hər bir nümayəndəsinə ünvanlanmış böyük bir dövlətçilik vəsiyyəti. Azərbaycanın müstəqilliyi əbədi olmalıdır. Ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan güclü dövlətə çevrilməlidir. Xalq öz lideri ətrafında birləşməlidir. Bu vəsiyyətlərə sadiqlik isə cənab Prezident İlham Əliyevin siyasi missiyası oldu. O günlərdən düz 30 il keçdi. Və tarix göstərdi ki, Ulu öndər Heydər Əliyevin vəsiyyətinə ən layiqli cavab onun yetirməsi – cənab Prezident İlham Əliyev tərəfindən verildi. Onun rəhbərliyi ilə Azərbaycan cəmi bir neçə il ərzində sabitlik adasına çevrildi. Regional gücə, sonra isə beynəlxalq platformalarda hörmət edilən aktora çevrildi. 2020-ci ildə 44 günlük müharibədə tarixi Zəfər qazanaraq torpaqlarını azad etdi. Bu, sadəcə hərbi qələbə deyildi – bu, Ata vəsiyyətinin yerinə yetirilməsi idi. Cənab Prezident Zəfər çıxışında demişdir: "Biz bu Zəfərlə təkcə torpaqlarımızı deyil, tariximizi, ruhumuzu, inamımızı, ata vəsiyyətimizi də azad etdik." Beləcə də Qurtuluşdan Zəfərə – hətta tarixə sığmayan yol başladı. Yəni, 1993-cü il – dövlət quruculuğunun başlanğıcı, 2003-cü il – inkişafın və vəsiyyətə sadiqliyin yeni mərhələsi, 2020-ci il – Zəfər, 2023-cü il – suverenliyin tam bərpası oldu. Bu xətt yalnız dövlətin taleyini deyil, xalqın ruhunu da dəyişdi. Azərbaycanlı özünə qayıtdı. Şəhidlərin ruhu rahatlıq tapdı. Qayıdışlar başlandı. Yollar çəkildi, bayraqlar ucaldı. Və bu gün – 15 iyun 2025-ci il tarixində – artıq "qurtuluş" sözünün mənası daha dərindir. O, həm də "vəfalılıq" sözüdür. Ulu öndər Heydər Əliyevə, onun ideyalarına, onun vəsiyyətinə və Azərbaycan xalqına olan sədaqətin simvoludur. Əgər bu gün Ulu öndər Heydər Əliyev bu xalqın suveren Şuşada qürurla dalğalanan bayrağını görsəydi, gözləri yaşarardı. O, bu zəfəri ömrü boyu arzulamış, bu vətənin azad gələcəyi üçün çalışmışdı. Bu gün biz onun ruhu qarşısında baş əyərək deyirik. Sizin vəsiyyətiniz yerinə yetirildi. Azərbaycan bütövdür. Azərbaycan qalib dövlətdir. Ulu öndərin dediyi kimi; "Gələcək nəsillər bu tarixi daha dərindən dərk etdikcə, bizim nə qədər böyük yol keçdiyimizi daha yaxşı anlayacaqlar." Yekun olaraq deyə bilərik ki, 15 İyun – Milli Qurtuluş Günü təkcə keçmişin xatirəsi deyil, həm də gələcəyə aparan yolun başlanğıcıdır. Hər bir azərbaycanlı bu günün mənasını dərindən anlamalı, onun tarixdəki yerini qorumalı və Ulu Öndərin ideyalarına daim sadiq qalmalıdır.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ".**

# Şəhid ailələri və müharibə əlilləri ziyarət edilmişdir

Qəbələ Rayon İcra Hakimiyyətinin əməkdaşları tərəfindən Vətən müharibəsində şəhadətə yüksəlmiş şəhidlərin ailələri və müharibə əlilləri Qurban bayramı münasibətilə evlərində ziyarət edilmişdir. Ziyarətçilər şəhidlə-



rimizin əziz xatirəsinin xalqımız tərəfindən hər zaman əziz tutulduğunu, şəhid ailələrinin və müharibə əlillərinin daim dövlətimizin diqqət mərkəzində saxlanıldığını qeyd edərək, bayram münasibətilə onları təbrik etmiş və bay-



ram sovqatı çatdırmışlar. Şəhidlərin ailə üzvləri və müharibə əlilləri onlara göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

# "Konstitusiya və Suverenlik İli"

Azərbaycan Respublikasının Konstitusiyası - dövlətçiliyimizin hüquqi təməlidir. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır. Konstitusiyamız xalqın suveren iradəsini əks etdirən, insan hüquq və azadlıqlarını təmin edən və dövlətin təşkilati strukturunu müəyyənləşdirən ali normativ sənəddir.

Konstitusiya sadəcə qanunlar toplusu deyil - o, xalqın öz dövlətini necə idarə etmək istədiyinə dair ifadə olunmuş siyasi və hüquqi iradəsidir. Suverenlik isə bu iradənin sərbəst və maneəsiz şəkildə həyata keçirilməsinin əsas təminatıdır.

Bu gün biz konstitusional dövlət quruculuğunda əldə etdiyimiz uğurları, hüquqi sistemimizin müasirləşdirilməsi istiqamətində atılan addımları və insan hüquqlarının müdafiəsinə verdiyimiz əhəmiyyəti qürurla qeyd edirik.

Azərbaycan Respublikasının Konstitusiyası - müstəqil dövlətimizin hüquqi və siyasi sütunudur. 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul olunmuş bu mühüm sənəd dövlətçiliyimizin bünövrəsini müəyyən edir, vətəndaşlarımızın əsas hüquq və azadlıqlarının təminatçısı kimi çıxış edir və demokratik idarəetmənin əsas prinsiplərini təsbit edir.

2025-ci ilin cənab Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə "Suverenlik İli" elan olunması dərin tarixi və strateji məna daşıyır. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir. Bu qərar Azərbaycan dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi, hüquqi və institusional əsaslarının gücləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl siyasətin davamıdır. Müstəqillik yalnız siyasi qərarla deyil, hüquqi təməl ilə yaşar və möhkəmlənər. Bu hüquqi təməl isə məhz Konstitusiyamızdır.

Konstitusiya yalnız normativ hüquqi akt deyil. O, xalqın suveren iradəsinin ifadəsi, dövlət və cəmiyyət münasibətlərini tənzimləyən ali hüquqi sənəd, hüquq mədəniyyətimizin və dövlət idarəçiliyimizin nüvəsidir. Bu baxımdan,

Konstitusiyanın aliliyi prinsipi, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas istiqaməti kimi hər birimizin fəaliyyətində rəhbər tutulmalıdır.

Suverenlik anlayışı isə yalnız ərazi bütövlüyü ilə məhdudlaşmır. Suverenlik - xalqın öz taleyini sərbəst müəyyən etməsi, daxili və xarici siyasətini müstəqil yürütməsi, hüquq sistemini və idarəçiliyini milli maraqlara uyğun şəkildə formalaşdırması deməkdir. Məhz bu müstəvidə Konstitusiya ilə suverenlik anlayışları bir-birini tamamlayan və möhkəmləndirən anlayışlar kimi çıxış edir.

Bu sənədin qəbulundan keçən illər ərzində Konstitusiyanın müddəaları əsasında ölkəmizdə güclü hüquqi dövlət modeli formalaşmış, ədalət mühakiməsinin, qanunçuluğun və hüquqi sabitliyin qorunması istiqamətində mühüm nailiyyətlər əldə olunmuşdur.

Konstitusiya ilə müəyyən olunmuş dövlətçilik prinsiplərinin qorunmasında və həyata keçirilməsində prokurorluq orqanlarının rolu xüsusilə qeyd olunmalıdır. Azərbaycan Respublikası Prokurorluğu Konstitusiyanın 133-cü maddəsinə uyğun olaraq qanunçuluğun təmin edilməsi, hüquq qaydalarının möhkəmləndirilməsi və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində mühüm vəzifələr icra edir.

Suverenliyin hüquqi təminatı ilk növbədə qanunun aliliyindən, hüquq-mühafizə orqanlarının prinsipial və obyektiv fəaliyyətindən keçir. Prokurorluq orqanları da bu istiqamətdə üzərinə düşən məsuliyyəti dərindən dərk edir və dövlətimizin maraqlarını qorumaq, ədaləti təmin etmək naminə fəaliyyətini Konstitusiyanın tələblərinə uyğun şəkildə həyata keçirir.

1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ilə prokurorluğun hüquqi statusu yeni mərhələyə qədəm qoydu. Konstitusiyada prokurorluğun fəaliyyət istiqamətləri aydın şəkildə müəyyən olundu, onun müstəqil və sabit hüquqi institut kimi mövqeyi möhkəmləndirildi. Bu, birbaşa Ulu Öndərin siyasi iradəsi və hüquqi dövlət quruculuğu sahəsində uzaqgörən siyasətinin nəticəsi idi. Azərbaycan Respublikası Prokurorluğu Konstitusiyanın aliliyini və qanunun hökmranlığını təmin edən mühüm dövlət institutlarından biridir. Prokurorluq orqanlarının fəaliyyət istiqamətləri - qanunçuluğun qorunması, cinayətkarlıqla mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi - birbaşa Konstitusiyamızdan qaynaqlanır və onun ali prinsiplərinə əsaslanır.

Hər bir prokurorluq əməkdaşı üçün Konstitusiya - yalnız hüquqi sənəd deyil, həm də peşə fəaliyyətimizin, hüquqi məsuliyyətimizin və dövlətə sədaqətimizin əsas göstəricisidir. Heydər Əliyevin dövlətçilik fəlsəfəsində hüquq-mühafizə orqanlarının, xüsusilə prokurorluğun rolu hər zaman xüsusi yer tutmuşdur. Onun rəhbərliyi dövründə hüquq sisteminin gücləndirilməsi, qanunçuluğun təmin olunması və ədalət prinsiplərinin qorunması istiqamətində həyata keçirilən islahatlar bu gün də müasir Azərbaycan Prokurorluğunun fəaliyyətinin əsasında dayanır.

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilmiş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu da prokurorluğun müasir hüquqi sistemdəki yerini müəyyən edən fundamental sənədlərdən biri oldu. Bu qanunla prokurorluq orqanlarının funksiyaları, struktur quruluşu, əməkdaşların hüquqları və vəzifələri, dövlətə və cəmiyyətə qarşı cavabdehlik mexanizmləri müəyyənləşdirildi.

Bu gün Azərbaycan Respublikasının Baş Prokurorluğu və onun tabeliyindəki qurumlar məhz Heydər Əliyevin müəyyən etdiyi ideoloji, mənəvi və hüquqi xətt əsasında fəaliyyət göstərməkdədir. Müstəqil, şəffaf, prinsipial və qanunlara söykənən prokurorluq sistemi məhz onun dövlət idarəçiliyi fəlsəfəsinin nəticəsidir.

Ulu Öndər deyirdi: "Ədalət olmayan yerdə nə qanun olur, nə də dövlət olur." Bizim vəzifəmiz isə bu ədaləti yaşatmaq, qorumaq və gələcək nəsillərə ötürməkdir.

Əgər bu gün biz güclü bir hüquq sistemində çalışırıqsa, vətəndaşlarımız dövlətinə inanırsa, ədalətin bərqərar olduğuna güvənirsə - bu, ilk növbədə Ulu Öndərin gördüyü misilsiz işlərin nəticəsidir.

Onun siyasi irsi, dövlətçilik fəlsəfəsi, hüquq mədəniyyətinə verdiyi dəyər bizi daim daha yüksək nəticələrə, daha məsuliyyətli xidmətə ruhlandırır.

Ulu öndər Heydər Əliyevin tarixi çıxışında dediyi kimi:

"Biz azadıq, biz müstəqilik, biz sərbəstik, biz heç kəsdən asılı deyilik, biz özümüz öz taleyimizin sahibiyik. Bilirsiniz, bunun üçün... yalnız bunun üçün aylarla, illərlə əziyyət çəkmək olar. Əsrlər boyu bizim ulu babalarımızdan indiyə qədər Azərbaycanın mütəfəkkir insanları milli azadlıq, müstəqillik arzusu ilə yaşamışlar, milli azadlıq, müstəqillik üçün mübarizə aparmışlar, vuruşmuşlar amma buna nail ola bilməmişlər. Biz buna nail olmuşuq və bilin ki, bunu indi əlimizdə saxlamaq, qorumaq hər bir insanın canından da onun üçün artıqdır, mənim üçün bunu bilin, mən sizə bunu deyirəm, öz canımdan, qanımdan da artıqdır Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq, onu əbədi etmək!"

**Şəfa ATAKİŞİYEVA,**
**Qəbələ rayon prokurorluğunun müstəntiqi,**
**III dərəcəli hüquqşünas.**